# SİNƏSİ GÜLLƏYƏ MƏRD DURANLARIN QANI YÜZ BAYRAĞIN ÜZÜNƏ ÇIXAR.



Məzahir HÜSEYNZADƏ

### Sən niyə gəldin

Ağacım tozlanmır, yoxdu nəsim də,
İstəyim soğuldu dib-dəhnəsindən.
Başladım başına bulud yığmağa
Guya ki, yağmağa
Sən niyə gəldin?!

Duz səpdin yarama, cızhacızdayam,
İndi görürsənmi qızıl cızdağam?!
Əzablı görüşü çəkib qırağa
Önə çıxmağa
Sən niyə gəldin?!

Görmürsən uçmuşam, darmadağınam,
İzim yer süpürür, yolu yalınam.
Təzədən ev tikib, kümə qurmağa,
Yenə uçurmağa
Sən niyə gəldin?!

Guya xəyalları gerçəkləməyə,
Zamanı ehmalca geri çəkməyə.
Yazığınmı gəldi qoca uşağa,
Qəhmər çıxmağa
Sən niyə gəldin?!

Ayrılmaq, qovuşmaq fərqi yoxuymuş,
Bitən məhəbbətin dərdi yoxuymuş.
Heç kəs gəlməmişdi hüzünlü çağa,
Yalqız baxmağa
Sən niyə gəldin?!

### İlk və son xəta

*Cərrah Telman Sərxanlıya həsr olunur*

Yaylağından uçub getdin,
Yuvanı boş qoydun, niyə?
Əcələ də hörmət etdin,
Əliboş qalmasın deyə.

Qar hər yanın tacı oldu,
Bir şah idi Telman dağı.
Özün yox telin qocaldı,
Qoca qışın oğlan çağı.

Silkələndi bir nəsil də,
Göməşidi, çökdü atın.
Bəxtinə bax hər fəsildə
Lalə açdı ağ xalatın.

Gur kəhrizlər qucağında
Su soğuldu, yer çatladı.
Sənin gümüş bıçağın da
Qana batıb qızıl oldu.

Uzun yolda addımladın,
Yeddi qarış yol an idi.
Ölümü kəsib doğradın,
Bu ilk və son xətan idi.

Duman üzüldü dəstədən,
Qatarını itirdin sən.
Əlin yetməyən xəstədən
Utanıb yerə girdin sən.

### Kirayə evlərdə qalan şairlər

Qarışıq, dolaşıq söhbət-sözdülər
Kirayə evlərdə qalan şairlər.
Dəllal yalanlara gülüb dözdülər
Kirayə evlərdə qalan şairlər.

Misra dolaşanda sözə çökdülər,
Körpə şitildilər, narın ləkdilər,
Evlənmək sarıdan zülüm çəkdilər
Kirayə evlərdə qalan şairlər.

Elə bilməyin ki, fərsiz, bifərdi,
Qolu zorlulardan onun nə fərqi.
Dərdi dərd bilənə kirayə verdi
Kirayə evlərdə qalan şairlər.

Günlər ay teylədi, oyun çıxardı,
Ömür yeyinlədi, axar-baxardı.
Bilir ki, kirəkeş biixtiyardı
Kirayə evlərdə qalan şairlər.

Bəzən vərəq üstə qurdalandılar,
Aşkarda od alıb dalda yandılar.
Kiminsə evində daldalandılar
Kirayə evlərdə qalan şairlər.

Kirayə pulunu beş-üç gün sıxdı,
Getdi kirə pulu ehtiyac çıxdı.
Bir cibinə baxdı, sağ-sola baxdı
Kirayə evlərdə qalan şairlər.

Əlləri əsadan güc alacaqdır,
Qədlənən qələmi qısalacaqdır,
Gərəksiz yaşında ev alacaqdır
Kirayə evlərdə qalan şairlər.

### Müəllim

*İmamverdi Əbilova*

Bezmədin içində sən səsin-küyün,
Şagirdlər belə də zövqündə idi.
Alimdən yuxarı müəllimliyin
Məktəb səmasının fövqündə idi.

Yazı lövhəsində xətlərin buta,
Bu yol gözəl yoldu, butalı yoldu.
Əla oxumuşdun institutda,
Sən kənd məktəbində sinifdə qaldın.

Sabah nə olacaq zənd idi deyə,
Yaxşını yamanı ölçüb-biçirdin.
Dünya tez fırlanan lent idi deyə
Şair səslərini lentə köçürdün.

Onsuz da bu dünya hamıya birdi,
Rahat vərəqlədin ömrün fəslini.
Əsalı şəklinə baxanda gördüm,
Üçüncü ayağın vəzifəsini.

Yoxluğun var olan fikrə bələnib,
Fikir tərpəndikcə kədər ayılır.
İşindən qalmayıb işlək qələmin,
Qələm yorulanda dincə qoyulur.

### 65-lərə

Görən harda qaldı o səs-küyümüz,
Səpdik sakitliyi biz coşa-coşa.
Bircə onadır ki, təskinliyimiz,
Hər yetən yetməyir 65 yaşa.

Təqaüd verirlər o da sadağa,
Evə qayıdırıq bir üzü qara,
Gözünü ağardır qanun-qadağa
İşdə qalmaq üçün vurnuxanlara.

Nə qədər gözləyib qocalsın bu gənc,
Onun ki, ağıllı təmənnası var.
Dostlar, sakit durun, olmayın nadinc,
Hoppanıb-düşməyin nə mənası var?!

Sən işdən gedəndə əyləşib dikdə
O məmur özünü öyür nədənsə.
Evində hökm edən mülayimlik də
Kövrək ürəyinə dəyir nədənsə.

Harda axşamladıq,
Düşdük nə kökə.
Kredit verilmir, nə küs, nə inci.
Ömrü kreditə veriblər bəlkə,
Əcəlin özüdür əvəzedici.

### Çıxar

Kəlmə hörənlərin, söz quranların,
İşi yel aparan sözünə çıxar.
Sinəsi gülləyə mərd duranların
Qanı yüz bayrağın üzünə çıxar.

Bülbülün nəğməsi gülə xərclənər,
Günlər xırdalanıb ilə xərclənər.
Ocağın alovu külə xərclənər,
Amma qara günü hisinə çıxar.

Axsağın addımı yeyinə dönsə,
Düyünsüz yolların düyünə dönsə,
Sap əyilib-batsa, min yönə dönsə,
İynə işindədi, düzünə çıxar.

Duyğusuz baxmayır dərddən doyana,
Dərd qəhmər çıxmayır dərddən doyana.
Qaçarsan həyatda o yan, bu yana,
Ağrı topuğundan dizinə çıxar.

### Sağ olsun

Daralıbdı yol necə,
Cəhlim, canın sağ olsun.
Ayaq, əl çatır üçə,
Əlim, canın sağ olsun.

Lağ edirlər ərkimə,
Toxum düşmür ləkimə.
Gücüm yetmir əkinə,
Belim, canın sağ olsun.

Külü üfürür qorçu,
Hiylə toxuyur torçu.
Obam gedib "əlborcu"?!
Elim, canın sağ olsun.

Külək əsdi nə səmtə,
Ömür keçdi sitəmdə.
Ölməyəcəm, ölsəm də,
Ölüm, canın sağ olsun.

### Qorudu

Düzlük məni yaxşı duydu,
Yalan-yanlışdan qorudu.
Sapandıma bir daş qoydum,
Daş məni daşdan qorudu.

Üzgün tale dərs olanda,
Ürcah oldum tərs olanda.
Üzümü qarla ovanda,
Qış məni qışdan qorudu.

Dadsız sevinc qarlı-buzlu,
Heç olmasa sözüm duzlu.
Qoç bordadım qoç buynuzlu
Qoyundan, qoçdan qorudu.

Bezdim dünya əyrisindən,
Şeytan çıxdı pərisindən.
Borc eylədim birisindən,
Borclunu borcdan qorudu.

Qəm bezdirdi əfsus, məni,
Mat qoyubdu əfsun məni,
Sümsünməyən nəfsim məni
Aldan-qumaşdan qorudu.

### Bölgü

Bölgünü qəribə bölüb bu dünya,
Hər şeydən bezikən tapmır güzarlıq.
Belə qənaətə gəlib bu dünya
Namərdə məlhəmdir mərdimazarlıq.

Budaq yaşıllığı kökdən istəyir,
Yabılar minməyə köhlən istəyir.
Köhnələr təptəzə köhnə istəyir,
Deyirlər, əl vermir təzə bazarlıq.

Təzənə od qoyur, yanır, saz yanır,
Kərəm yola çıxır, yola sazlanır.
Ulduz sayrışanda göy ulduzlanır,
Əsəb sayrışanda itir tarazlıq.

Tüstüsü olmasa təndir boğular,
Sınsa dar ağacı kəndir yığılar.
Dirilər bir ölsə, min bir doğular,
Fağırlar böyüyər,
Amma qapazlıq.

Yaxşını, yamanı ayırd etməyə,
Vaxt çatmır vaxtını sayıb getməyə.
Ayıb çoxalıbdı, ayıb örtməyə
Səma darlıq edir, qara yer azlıq.